AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ

**Əlyazması hüququnda**

**HİCRAN İBRAHİM OĞLU ŞƏRİFOV**

# UŞAQ - GƏNCLƏR İDMAN MƏKTƏBLƏRİNİN İDARƏ EDİLMƏSİNİN ELMİ- PEDAQOJİ ƏSASLARI

5804.01 – ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi

Pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**B A K I – 2 0 1 6**

Dissertasiya işi Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunun Təhsilin idarəolunması və iqtisadiyyatı şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Piralı Behbudalı oğlu Əliyev**
*pedaqogika üzrə elmlər doktoru,*
*professor, Əməkdar müəllim*

**Rəsmi opponentlər:** **Əjdər Əbdülhüseyn oğlu Ağayev**
*pedaqogika üzrə elmlər doktoru,*
*professor, Əməkdar müəllim*

**Əli Əyyub oğlu Mehtiyev**
*pedaqogika üzrə fəlsəfə doktoru, professor*

**Aparıcı təşkilat:** Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının "Sosial elmlər" kafedrası

Müdafiə "_25___" __10___________ 2016-cı ildə saat $\underline{14^{00}}$- da Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində fəaliyyət göstərən FD 02.061 Dissertasiya şurasının iclasında kiçik akt zalında keçiriləcəkdir.

Ünvan: Az – 1000, Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 68

Dissertasiya ilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin elmi kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat " ___" __________ 2016-cı ildə göndərilmişdir.

**Dissertasiya şurasının**
**elmi katibi:** **K.R.Quliyeva**
*pedaqogika üzrə fəlsəfə doktoru,*
*dosent*

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Problemin aktuallığı.** Azərbaycan Respublikasının bir dövlət kimi müstəqilliyinin qorunması, ərazi bütövlüyünün bərpa edilməsi, iqtisadi cəhətdən inkişaf etmiş ölkələr səviyyəsinə yüksəldilməsi böyüyən gənc nəslin mənəvi və fiziki sağlamlığından asılıdır. Uşaq-gənclərin fiziki sağlamlığı, onların gənc idmançı kimi formalaşması dövlətin qayğısından, təlim-tərbiyə işinin düzgün təşkilindən və qanunauyğun qurulmasından asılıdır. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan uşaq-gənclərin idmanla məşğul olmasına diqqət və qayğı Azərbaycan Respublikasının Prezidenti İ.H.Əliyevin sayəsində uğurla davam etdirilir. İ.H.Əliyev 1997-ci ilin oktyabr ayından Milli Olimpiya Komitəsinin prezidenti kimi fəaliyyətə başlayandan ölkəmizdə idmanın inkişafı dinamik xarakter almış və bu sahədə əsaslı dönüşə nail olunmuşdur. Bunun nəticəsidir ki, bu gün respulikamızda 64 idman növü üzrə 53 idman federasiyası, 66 idman təşkilatı, 60 idman klubu, 170-ə yaxın idman məktəbi fəaliyyət göstərir. Federasiyalardan 23-ü Olimpiya, 36-sı qeyri-Olimpiya idman növünü inkişaf etdirir. Bunların sırasında Uşaq-Gənclər İdman Məktəbləri (UGİM) və İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman Məktəbləri (İOEUGİM) xüsusi yer tutur. UGİM məktəbdənkənar, sosial məqsədyönlü müəssisədir, öz fəaliyyətini uşaq, yeniyetmə və gənclərin ahəngdar inkişafına, bədən tərbiyəsi və idman vasitəsilə sağlamlığının və fiziki hazırlığının möhkəmləndirilməsinə, yerləşdiyi ərazidə ümumtəhsil məktəbləri ilə fiziki tərbiyə işində istiqamətləndirici rol oynamasına və respublikada yüksək səviyyəli idmançıların hazırlanmasının başlanğıc və orta mərhələlərinin əhatə edilməsinə yönəlir.

Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinin 2001-ci il 19 oktyabr tarixli 8 (b-3) nömrəli qərarı ilə UGİM-in məşğul olacağı 47 idman növünün adı təsdiq olunmuşdur. UGİM idman sahəsində çoxillik piramida şəklində işlər aparan, ehtiyat ixtisaslı mütəxəssislər hazırlayan və müxtəlif sahəni əhatə edən gənc idmançılar formalaşdıran müəssisədir. UGİM-də ibtidai hazırlıq, təlim-məşq, idman təkmilləşdirmə və yüksək idman ustalığı prosesinin və yarışların nəticələrinin yüksəldlməsi üçün pedaqoji-metodik təminat modeli əsasında hazırlıq, istedadlı uşaqların qruplaşdırılması və reabilitasiya-profilaktik işin təhlili, planlaşdırılması və icrasına nəzarət aparılır. Azərbaycan Respublikasında ehtiyat gənc idman-çıların hazırlanması üçün dərinləşdirilmiş proqram və metodikalardan

istifadə olunur. Ehtiyat idmançıların hazırlanması sistemi UGİM-də həyata keçirilir.

Azərbaycanda fiziki tərbiyənin ümumi məsələlərini pedaqogikanın tərkib hissəsi kimi M.M.Mehdizadə, M.C.Muradxanov, N.M.Kazımov, Y.R.Talıbov, Ə.Ə.Ağayev, İ.N.İsayev, A.N.Abbasov, H.Ə.Əlizadə, Ə.X.Paşayev, F.A.Rüstəmov, A.M.Həsənov və b. araşdırmışlar.

Fiziki tərbiyənin məzmun, forma, metod və prinsiplərinin təkmilləşdirilməsi sahəsində İ.V.Musayev, B.S.Quliyev, M.A.İsgəndərov, H.H.Qurbanov, M.İ.Məmmədov, H.N.Məmmədov, M.Ə.Nəsrullayev, E.T.Rəhimov, K.T.Rzayev, H.A.Həmidov, Ə.H.Şabanov, X.K.Qurbanov, E.F.Acalov, Ə.E.Mehdiyev, M.İ.Aslanlı, D.Q.Quliyev və b. tədqiqatlar aparmışlar.

Aparılan araşdırmadan belə qənaətə gəlmək olur ki, uşaq-gənclər idman məktəblərinin fəaliyyətinin pedaqoji-metodik təminat modeli əsasında qurulmasını özündə əks etdirən tədqiqat işi yoxdur. Buna görə də, UGİM-in idarə edilməsinin pedaqoji, psixoloji və metodik əsaslarda qurulmasında qüsurlar mövcuddur. Bizə qədər bu sahənin araşdırlması fraqmentar xarakter daşımış, sistemli və fundamental tədqiqatlar aparılmamışdır. Bunları nəzərə alıb "Uşaq-gənclər idman məktəblərinin idarə edilməsinin elmi-pedaqoji əsasları" mövzusunda tədqiqat işi apardıq.

**Tədqiqatın obyekti** uşaq-gənclər idman məktəblərinin idarə edilməsi prosesidir.

**Tədqiqatın predmeti** uşaq-gənclər idman məktəblərinin idarə edilməsinin elmi-pedaqoji əsaslarıdır.

**Tədqiqatın məqsədi** uşaq-gənclər idman məktəblərinin təşkilati, təlim fəaliyyəti, pedaqoji-metodik təminatı, profilaktik-reabilitasiya, tibbi-bioloji təminat iş bloklarını özündə birləşdirən modul tipli idarəetmə modeli yaratmaqdır.

**Tədqiqatın fərziyyəsi**. Əgər UGİM-də ibtidai hazırlıq, təlim-məşq, idman təkmilləşdirmə və yüksək idman ustalığı qruplarında iştirak edən məktəblilərin potensial imkanları düzgün müəyyənləşərsə, idarəetmə prosesi pedaqoji-metodik təminat modeli əsasında qurularsa; məşqçi-müəllimin peşəkarlıq səriştəsi daim yüksəldilərsə; çoxillik piramida şəkilli ehtiyat idmançı hazırlığı işində müsbət nəticəyə nail olunar, respublika və dünya səviyyəli idmançılar formalaşar.

Tədqiqatın məqsədindən və işçi fərziyyəsindən asılı olaraq qarşıya aşağıdakı **vəzifələr** qoyulmuşdur:

- UGİM-in idarə edilməsi işinin hüquqi-normativ sənədlərdə

qoyuluşu məsələlərinin araşdırılması;

- UGİM-in ehtiyat idmançılar hazırlayan sistemin tərkib hissəsi kimi müəyyənləşdirilməsi;
- UGİM-in effektli idarə edilməsi işinin pedaqoji-metodik, psixoloji təminatı modelinin işlənməsi;
- məşqçi-müəllimlərin peşəkar inkişafını şərtləndirən modelin yaradılması;
- UGİM-in fəaliyyətinin məktəbdaxili idarə edilməsi işinin pedaqoji-metodik təminatı modelinin eksperimentdə yoxlanması.

**Tədqiqatın metodoloji əsasını** pedaqoji fakt, hadisə və proseslərin öyrənilməsi, uşaq-gənclər idman məktəblərinin idarə edilməsinin elmi-pedaqoji əsaslarını aşkar etmək məqsədilə tətbiq olunan nəzəri müddəalar, prinsip, metod və vasitələrin məcmusu təşkil edir.

**İstifadə olunan metodlar**: *nəzəri təhlil və tərkib; pedaqoji müşahidə; pedaqoji müsahibə və anket sorğusu; sənədlərin öyrənilməsi; riyazi və statistik metodlar; pedaqoji eksperiment.*

Tədqiqat zamanı eksperimentin müəyyənedici, öyrədici və yoxlayıcı mərhələlərinə müraciət edilmişdir.

Eksperimentə Abşeron rayon UGİM, Yasamal rayon 8 nömrəli UGİM və Cəngi Güləş Klubunda fəaliyyət göstərən idman bölmələrindən 201 nəfər ibtidai hazırlıq, 112 nəfər təlim-məşq, 98 nəfər idmanın təkmilləşdirilməsi, 65 nəfər yüksək idman ustalığına namizəd uşaq, 10 nəfər idman üzrə metodist və 7 nəfər məşqçi-müəllim cəlb edilmişdir.

**Tədqiqatın elmi yeniliyi**. UGİM-in idarə edilməsinin pedaqoji-metodik təminatı modeli hazırlanmış və onların fəaliyyəti modelin məzmun və quruluşu əsasında təşkil edilmişdir. UGİM-də diferensiallaşdırılmış ibtidai hazırlıq, təlim-məşq, idman təkmilləşdirmə və yüksək idman ustalığı tədris mərhələlərinin pedaqoji-metodik əsasları işlənmiş, çoxillik piramida şəklində aparılan ehtiyat gənc idmançıların hazırlığı prosesinin idarə edilməsi işinin məzmununun əsas aspektləri dəqiqləşdirilmiş, məktəbi idarə edənlərin vəzifəyə görə fəaliyyət komponentləri hazırlanmışdır.

**Tədqiqatın nəzəri əhəmiyyəti.** Tədqiqatda irəli sürülən fikirlər, elmi müddəalar UGİM-in idarə edilməsini yeni ideyalarla zənginləşdirəcək, bu baxımdan məzmun, metod və iş sisteminin elmi-pedaqoji əsaslar üzərində yenidən qurulmasına imkan verəcək, ümumiyyətlə, idarəetmənin məzmunu, imkan və yollarının zənginləşdirilməsində əhəmiyyətli rol oynayacaqdır.

**Tədqiqatın praktik əhəmiyyəti**. Tədqiqatdan alınmış nəticələr və tövsiyələr UGİM-in idarə edilməsi işinin səmərəliliyinin artırılmasına, ibtidai

hazırlıq, təlim-məşq, idman təkmilləşdirmə və yüksək idman ustalığı tədris mərhələlərində aparılan işin inkişafına kömək edəcəkdir. Alınan nəticələrdən İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman Məktəblərinin pedaqoji-metodik təminatında istifadə etməklə idarə etməni effektli təşkil edəcək, nəticəyönlü planlaşdırmaya nail olacaqlar.

**Müdafiəyə təqdim olunan müddəalar:**

1. Pedaqoji-metodik əsasların müəyyənləşdirilməsi konseptual əsas kimi UGİM-in idarə edilməsi modelinin müəyyənləşdirilməsinə real zəmin yaradır.

2. UGİM-in idarə edilməsinin struktur modeli (təşkilati, tədris, metodik) fəaliyyəti rasionallaşdırır və ibtidai hazırlıq, təlim-məşq, idman təkmilləşdirmə və yüksək idman ustalığı prosesinin tibbi-bioloji təminatnı, profilaktik-reabilitasiya istiqamətlərini formalaşdırır, inteqrasiya edir və təhsilin məzmununu sosial-iqtisadi xidmətə adaptasiya edr.

3. UGİM-in təlim-tədris və metodik fəaliyyətinin məzmun və istiqamətləri diferensiallaşdırılmış yanaşma ilə həyata keçirildikdə, təlim-məşq prosesi nəticəyönlü olur.

4. UGİM-in fəaliyyətinin modelləşdirilməsi və proqnozlaşdırılmasının əsas elementi sistemin inkişafının idarə edilməsini operativ tənzimləyir, keyfiyyəti aşağı səviyyədən müntəzəm nəzarət nəticəsində yüksək səviyyəli təhsillə təmin edir.

**Tədqiqatın aprobasiyası**. Dissertasiyanın əsas məzmunu və nəticələri respublika və beynəlxalq səviyyəli konfrans, simpoziumlarda pedaqoji ictimaiyyətin müzakirəsinə verilmiş, məqalə şəklində Azərbaycanda və Ukraynada AAK-ın tövsiyə etdiyi nüfuzlu jurnallarda şap olunmuşdur.

**Dissertasiya işinin quruluşu.** Dissertasiya giriş, yeddi yarımfəsli özündə birləşdirən iki fəsil, nəticə, istifadə edilmiş ədəbiyyat siyahısı və əlavələrdən ibarətdir. Dissertasiya işində 8 sxem, 7 cədvəl, 5 şəkil verilmişdir. İstifadə edilmiş ədəbiyyat siyahısında Azərbaycan, rus və indilis dillərində 202 monoqrafiya, dissertasiya, avtoreferat, dərslik və məqalənin adı vardır.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

**Girişdə** tədqiqatın aktuallığı, obyekti, predmeti, məqsəd və vəzifələri, fərziyyəsi, metodoloji əsası, tədqiqat metodları, elmi yeniyi, nəzəri və praktik əhəmiyyəti, müdafiəyə təqdim olunan müddəalar və s. əks olunmuşdur.

“**Uşaq - gənclər idman məktəblərinin idarə ediləsinin elmi-nəzəri əsasları”** adlanan birinci fəsil özündə üç yarımfəsli birləşdirir. Birinci yarımfəsildə ***“UGİM-in idarə edilməsinin hüquqi-normativ sənədlərdə qoyuluşu”***na aydınlıq gətirilir. “Azərbaycan Respublikasının Konstitusiyası”nda uşaq-gənclərin mənəvi və fiziki inkişafına xüsusi yer verilmişdir. “Uşaq hüquqları haqqında Azərbaycan Respublikasının qanunu”nda hər bir uşağın yaşamaq, normal şəraitdə fiziki, əqli və mənəvi cəhətdən inkişaf etmək, məktəbdənkənar təhsil müəssisələrində fiziki tərbiyə işi ilə məşğul olmaq, istirahət və asudə vaxtdan səmərəli istifadə etmək hüququ olduğu göstərilmişdir.

BMT-nin “Uşaq hüquqları haqqına Konvensiyası”nda iştirakçı dövlətlər hər bir uşağın fiziki, əqli, mənəvi, əxlaqi və sosial inkişafı üçün lazım olan həyat səviyyəsinə malik olmaq hüququnu təsdiq edir. Uşağın təhsili onun şəxsiyyətinin, istedadının, əqli və fiziki bacarığının tam həcmdə inkişaf etdirilməsi məqsədlərinə yönəldilməlidir.

“Təhsil haqqında Azərbaycan Respublikasının Qanunun”da məktəbdənkənar təhsil müəssisələrinin adları sırasında uşaq- gənclər idman məktəbləri də göstərilmişdir.

“Bədən tərbiyəsi və idman haqqında Azərbaycan Respublikasının Qanunu”nda göstərilir ki, UGİM-in yaradılması uşaq - gənclərin sağlam həyat tərzinin təmin edilməsi, sağlamlığının möhkəmləndirilməsi, şəxsiyyətin inkişafı, fasiləsiz təhsil sisteminin təmin edilməsi və milli yığma konandalara ehtiyat idman qüvvələrinin hazırlanması məqsədini daşıyır. Vurğulanır ki, uşaq-gənclər idman məktəbləri, olimpiya ehtiyatları məktəbləri, olimpiya hazırlığı mərkəzləri sahələri üzrə bilavasitə onlara məxsus olan tədris-idman bazalarından, idman zalları və digər idman qurğularından, idman avadanlığından, texniki vasitələrdən, idman geyimindən və digər ləvazimatlardan istifadə edir.

UGİM-in idarə olunmasında Azərbaycan Respublikası Nazirlər Kabinetinin təsdiq etdiyi “Məktəbdənkənar təhsil müəssisələrinin nümunəvi Əsasnamə”si mühüm rol oynayır.

“Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyasının və

“Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nın müvafiq müddəalarına uyğun olaraq məktəbdənkənar təhsil sahəsinin başlıca fəaliyyət istiqamətləri aşağıdakı kimi müəyyənləşdirilmişdir: məktəbdənkənar təhsil siyasətinin formalaşdırılması; məktəbdənkənar təhsilin istiqamətləri üzrə işlərin optimallaşdırılması; təhsili idarəetmə orqanları və məktəbdənkənar təhsil müəssisələri rəhbərləri tərəfindən məktəbdənkənar təhsil sahəsinə dair mövcud qanunvericiliyin yerinə yetirilməsi.

UGİM-lər Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 12 oktyabr tarixli 161 №-li qərarı ilə təsdiq olunmuş “Uşaq-Gənclər İdman Məktəbləri və İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman Məktəblərinin Nümunəvi Əsasnaməsi”nin tələbləri əsasında yaradılır. UGİM-lər spesifik idarə etmə xüsusiyyətinə malikdir. Bu məktəblərin idarə edilməsində Gənclər və İdman Nazirliyi ilə yanaşı, Azərbaycan Respublikası Təhsil Nazirliyi də iştirak edir. Bu iki təşkilatın tabeçiliyində müxtəlif UGİM-lər var. Hər iki nazirliyin elmi-pedaqoji, metodik tövsiyələri UGİM-in idarə olunmasında nəzərə alınır. Digər tərəfdən, Maliyyə Nazirliyinin, Daxili İşlər Nazirliyinin, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının tövsiyələrinə, normativlərinə də riayət edilir.

UGİM və İOEUGİM öz fəaliyyətlərində Azərbaycan Respublikasının Konstitusiyasını, qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Nazirlər Kabinetinin müvafiq qərarlarını və Əsasnamələrini rəhbər tutur. Rəsmi sənədlər UGİM-in fəaliyyətinin yüksək səviyyədə qurulmasına geniş imkan verir.

Birinci fəslin ikinci yarımfəslində ***“ UGİM-in idarə edilməsinin pedaqoji-metodik əsasları”*** araşdırılmışdır. Burada UGİM-in idarə edilməsi işi məzmununa görə dörd qrupa (təlim, tərbiyə, inkişaf və təşkilati) bölünmüşdür. Tədrisin ibtidai hazırlıq, təlim-məşq, idman təkmilləşmə və yüksək idman ustalığı mərhələlərinə bölünən çoxillik idman hazırlığının hər mərhələsinin vəzifələri dəqiq müəyyənləşdirmişdir.

UGİM-də təlim məşğələlərinin əsas formalarına: nəzəri məşğələlər, tədris kino-filmlərə, kino-xronikaya, kino-fraqmentlərə baxış, qrup halında məşqlər, fərdi planlar üzrə məşqlər, təsdiq edilmiş idman tədbirlərinin təqvim planına uyğun olaraq idman yarışlarında və məşq görüşlərində iştirak, idman-sağlamlıq düşərgəsində və təlim-məşq toplanışında təlim-məşq prosesində iştirak aiddir.

Mövcud idman bölməsində təşkilati, tərbiyəvi və metodik işləri müntəzəm olaraq təlimatçı-metodist həyata keçirir. Təsdiq olunmuş plana uyğun olaraq, məktəblilərin tərbiyəsi üzrə tədbirlərin təşkili, dərsdənkənar

kütləvi idman işlərinin təşkilində ümumi təhsil məktəblərinə kömək göstərmək, məşqçi-müəllimlərlə birlikdə UGİM-ə daxil olmaq üçün namizədlər seçmək, məşqçi-müəllim heyətini metodik ədəbiyyatla, dərs vəsaiti ilə təmin etmək və onlarla metodik işlər aparmaq təlimatçı-metodistlərin vəzifəsinə daxildir. Baş təlimatçı-metodist təlimatçı-metodistlərin işinə rəhbərlik və nəzarət edir, metodkabinetin işini təmin edir, rayonda (şəhərdə) metodmərkəz kimi UGİM-in metodiki tədbirlərini təşkil edir, şagirdlərin tərbiyəsi üzrə ümumməktəb tədbirlərinin keçirilməsinə məsuliyyət daşıyır. Baş təlimatçı-metodist öz işində bilavasitə direktora və tədris hissə üzrə müavinə tabedir.

UGİM-də təlim-məşq və yarış prosesinin əsas məqsədi gənc idmançılarda peşəkar səriştələr aşılamaqdır. Hərəki səriştənin inkişafını təmin edən dörd əsas prosesi: 1) təfəkkür prosesinin hərəki fəaliyyətdə məqsədi, onun strukturu və nəticələri, biliklərin mənimsənilməsi; 2) müvafiq şərti-refleks əlaqələrin qurulması və möhkəmləndirilməsi prosesi; 3)hərəkət-dayaq aparatı, orqanizmin funksiyalarının funksional yenidənbərpa prosesi; 4) tələb olunan hərəkətlərə müvafiq bəzi psixoloji cəhətlər və təkanverici keyfiyyətlərin inkişaf prosesi fərqləndirildi.

UGİM-də təşkil edilən təlim-məşq prosesi pedaqoji prinsiplərə cavab verməlidir. Bu baxımdan, təlim-məşq prosesinin təhlil və sintezinin düzgün aparılması mühüm əhəmiyyət kəsb edir. Tədrisin ilk mərhələsindən uşaq-gənclərin hərəkətləri bacardıqca ideal şəkildə yerinə yetirməsinə çalışdıq. Bunun üçün iki üsuldan istifadə etdik: birinci, şəraiti sadələşdirdik, hərəkətlərin intensivliyini azaltdıq; ikinci, məşq prosesini quruluşca daha sadə hərəkətlərə, üsullara ayırdıq. Birinci tədris üsulu vahid, ikinci parçalanmış, onların vəhdəti isə kompleks üsul adlandırılır. Bu sahədə yeganə düzgün üsul kompleks üsuldur.

Hərəki bacarıqların təhlil və sintezi fiziki tərbiyə və idmanın pedaqoji prinsiplərindən biri kimi çıxış edir. Fiziki hərəkətin qavranılmasına nəzarət fiziki tərbiyənin və idmanın pedaqoji prinsiplərindən biridir. Bu prinsip, insanın hərəkətləri və psixikası arasında məqsədyönlü əlaqəyə əsaslanır.

Təlim-məşq prosesində yükün həcminin tədricən artırılması, variantlaşması, tənzimlənməsi fiziki tərbiyənin pedaqoji prinsiplərindəndir.

Uşaq-gənclərin ibtidai hazırlıq, təlim-məşq və idman təkmilləşdirmə mərhələsində texnikaya yiyələnməsi mürəkkəb məsələdir. Təlim məşğələləri müddətində, məşq zamanı, yarışlarda, yaxud peşəkar idmançının hərəkətlərində bu və ya digər dərəcədə ideal texnikadan

yayınmalar olur. Bu yayınmalar səhvlər və ya xətalar kimi nəzərdən keçirilir. Fiziki çalışmaların icrasında səhvlər dörd qrup səbəb nəticəsində ( 1) biomexaniki, 2) fizioloji, 3) pedaqoji- psoxoloji, 4) mühitin şərtlərindən) meydana gəlir.

UGİM-in fəaliyyətinin keyfiyyətli nəticələnməsi üçün burada aparılan işlər məqsədəuyğun şəkildə dəyişir, yenidən qurulur, yaxud sistem tədricən təkmilləşdirilir, hazırlanmış innovasion modellə əvəz olunur.

***"Pedaqoji ədəbiyyatda problemin qoyuluşu"*** adlanan üçüncü yarımfəsildə elmi-pedaqoji ədəbiyyat aşağıdakı kimi qruplaşdırılaraq təhlil edilmişdir:

1. Görkəmli filosof və pedaqoqlardan Platon, Aristotel, M.E.Monten, M.H.Lüter, Y.A.Komenski, İ.H.Pestalossi, İ.B.Bazedov, İ.Kant, Q.Spenser, H.V.F.Hegel, V.Q.Belinski, A.İ.Gertsen, P.F.Lesqaft, Nəsrəddin Tusi, M.F.Axundov və H.Zərdabi uşaq-gənclərin fiziki tərbiyəsinin əhəmiyyəti barədə fikir və mülahizələr söyləmişlər.

2. M.M.Mehdizadə, M.C.Muradxanov, N.M.Kazimov, Y.R.Talıbov, Ə.Ə.Ağayev, İ.N.İsayev, A.N.Abbasov, H.Ə.Əlizadə, Ə.X.Paşayev, F.A.Rüstəmov, A.M.Həsənovun (ayrıca, yaxud birlikdə yazdıqları) pedaqogikadan dərslik və dərs vəsaitlərində fiziki tərbiyənin məzmun, forma, metod, prinsip və vasitələrinə aydınlıq gətirmişlər.

3. Fiziki tərbiyənin məzmununun təkmiləşdirilməsi sahəsində İ.V.Musayev, B.S.Quliyev, D.Q.Quliyev, R.Z.Əliyev, M.A.İsgəndərov, H.H.Qurbanov, M.İ.Məmmədov, H.N.Məmmədov, M.Ə.Nəsrullayev, E.T.Rəhimov, K.T.Rzayev, H.A.Həmidov, Ə.H.Şabanov, E.F.Acalov, Ə.E.Mehdiyev və b. tədqiqatlar aparmışlar.

4. N.T.Quliyevin tədqiqatı araşdırmamıza yaxın olmasına baxmayaraq, uşaq-gənclər idman məktəblərinin fəaliyyətinə geniş yer verilməmişdir. Halbuki bu məktəblər, idmanın inkişafına böyük töhfə vermək iqtidarındadır.

F.Z.Məmmədov, A.Y.Əsgərov, Ə.X.Ramazanov, M.Q.Cəfərov, Ş.H.Əbdülrəhmanov, L.İ.Əsgərov, Z.Ə.Məmmədov, M.H.Rəhimov, B.Ə. Cabbarov, Y.M.Babanlı, U.H.Sağlam, F.C. Hüseynov və M. İ. Aslanlının dissertasiyalarının təhlili göstərdi ki, onlar uşaq-gənclər idman məktəblərinin idarə edilməsinin elmi-pedaqoji əsaslarını işlənməmişlər.

5. Rus alimlərindən V.Q.Alabin, V.Q. Bauer,Y.V.Verxoşanskiy, B.A. Vyatnuka,Q.D.Qorbunov,A.P.Zolomarev,L.M.Kulukov, M.Y.Nabatnikova, V. Q. Nikitişkin, A.T. Parşikov və b. uşaq-gənclər idman məktəblərində təlimin təşkili, fəaliyyətin idarəedilməsi, nəticənin optimallaşdırılması

sahəsində dəyərli tədqiqatlar aparmışlar. Lakin onların istinad etdiyi hüquqi-normativ sənədlərdə, maddi-texniki bazada və Nümunəvi Əsasnamədə, məktəblilərə aşılanması nəzərdə tutulan milli-mənəvi dəyərlərdə fərqliliklər var. Bu sahədə olan elmi-pedaqoji ədəbiyyat məktəbdaxili idarəetməni milli əsasda tənzimləməyə kömək etmir.

UGİM-in idarəedilməsi işini optimallaşdırmaq üçün idarəetmə funksiyalarını, mexanizmlərini, strategiyasını, tabeçiliyini və idman məktəbi rəhbərinin vəzifələrini aydınlaşdırdıq.

Bunlar əsasında, UGİM-in nəticəyönlü idarə edilməsi modelini yaratmağı qarşımıza məqsəd qoyduq.

**"Uçaq-gənclər idman məktəblərinin idarə edilməsinin modernləşdirilməsi"** adlanan ikinci fəsilin birinci yarımfəslində ***"Uşaq-gənclər idman məktəblərinin idarə edilməsinin pedaqoji-metodik təminatı modeli"*** yaradılmışdır. Uşaq-gənclər idman məktəblərinin idarə edilməsinə modul tipli pedaqoji-metodik təminat modeli tətbiq olunanda bütün işlər inteqrativ xarakter kəsb etdi. Təhsil vermə modelləri, tədris kursunun məzmunu və quruluşu, uşaqlarla işin təşkilinin konkret məqsədləri, uşaqları qruplara ayrmanın formaları, testləşdirilmə və qiymətləndirmənin metodları, həmçinin təlim prosesinin qiymətləndirilməsi kimi qarşılıqlı əlaqələri müəyyənləşdirməyə imkan verdi.

UGİM-in idarə edilməsinin təşkilati-metodik aspektləri fəaliyyətin təşkili modelini, fəaliyyətin idarə edilməsi sisteminin sxemini və quruluşun koordinasiyasını, işin məqsəd və məzmununu əhatə edir. Təhsil prosesinin bu quruluş sistemi beş bloka: fəaliyyətin təşkili, təlim fəaliyyəti, metodik fəaliyyət, təlim-məşq prosesinin tibbi-bioloji təminatı və fəaliyyətin profilaktik-reabilitasiyasına bölür. Modullarla təklif edilən təhsil prosesinin təşkili imkan verir ki, idmançı fəaliyyətində keyfiyyətə nail olsun.

Fəaliyyətin təşkili blokuna: maddi-texniki, tədris, infrastruktur, hüquqi-normativ, marketinq, informasiyalaşdırma və təhsil verənlərin keyfiyyət göstəriciləri aid edilir.

Fəaliyyətin təşkilində məqsəd əlavə materiallar cəlb etməklə təlim prosesini optimallaşdırmaqla nəticələrə nail olmaqdır. Təlim-məşq işinin planı – idman məktəbinin idarəedilməsi prosesinin gələcək vəziyyətinin fraqmentlərindən birinin modelidir. Planlaşdırmanın uğurlu alınması üçün pedaqoji modelləşdirmənin prinsiplərinə riayət etmək lazımdır. Bunun üçün tərbiyənin sistemlilik, konkretlik, optimallıq, dialoq, fərdilik, elmilik, fasiləsizlik prinsiplərinə istinad olundu.

UGİM-də diqqət yetirdiyimiz məsələlərdən biri də pedaqoji-

metodik xidmət blokunun yaradılmasıdır. Pedaqoji-metodik xidmət blokunun strukturuna təşkilati-metodik fəaliyyət, təlim-metodik fəaliyyət və elmi-metodik fəaliyyət daxildir. UGİM-də pedaqoji-metodik xidmət blokunun strukturunu özündə birləşdirən: metodik, koordinasiya, peşəkarlığın yüksəldilməsi, informasiyalaşdırma, analitik təhlil, proqnozlaşdırma və layihələndirmə fəaliyyət növləri var.

Metodik fəaliyyətin əsas məqsədi xarici və daxili təcrübəyə əsaslanaraq UGİM-in tələbatını ödəməkdən ibarətdir. Mövcud funksiya imkan verir, müəssisə fasiləsiz olaraq təşkilati-metodik fəaliyyətlə təmin olunsun, metodbirləşmələrin iclasları keçirilsin, seminar, “dəyirmi masa”, “açıq təlim-məşq məşğələləri”, xüsusi hazırlanmış komplekslərin nümayişi, müəllif tapşırıqlarının və metodikasının təsdiq edilməsi həyata keçirilsin.

Təşkilati formalardan: ixtisasartırma kurslarından, konsultasiyadan, təhkim olunmuş məşqçi-müəllimin təcrübəsindən, özünütəhsildən, distant (məsafədən) təhsildən, elmi-praktik konfranslardan, metodik məşğələlərdən, “açıq təlim-məşq məşğələləri”ndən, təlim kurslarından, mühazirələrdən, diskusiyalardan, modelin yaradılmasından, qabaqcıl təcrübədən, rollu oyunlardan, ustad dərslərindən, “dəyirmi masa”lardan istifadə etməklə peşəkarlığın inkişafına nail olunur.

Metodik xidmətin əsas istiqamətləri: UGİM-in strateji siyasətini, məqsədə görə inkişafını əks etdirən sənədlərin işlənməsi; fəaliyyətin struktur bölmələrinin təşkili, innovasiyalı prosesə məşğul olması, eksperimental və tədqiqatçılıq fəaliyyətinin hazırlanması; iştirakçıların innovasiya prosesinə hazırlaşdırılması; məktəbin inkişafı işinin həyata keçirilməsi; innovasiyanın, tədqiqatın və eksperimental işin hazırlanması və tətbiq olunması; fəaliyyətin koordinasiyası, innovasiyalı prosesin ekspertizası, məktəbədaxili idarəetmənin modernləşdirilməsi və layihələndirilməsi şəklində müəyyənləşdirildi.

Tədrisin ibtidai hazırlıq, təlim-məşq, təkmilləşdirmə və yüksək idman ustalığı mərhələsinin tibbi-bioloji təminatı modeli UGİM-də aşağıdakı tədbirlərin həyata keçirilməsini irəli sürür: tibb mərkəzlərində iştirakçıların sağlamlıq vəziyyətinin ümumi müayinəsi; ümumi biokimyəvi müayinə, idmançının durumunun tibbi göstəriciləri; fiziki inkişafa nəzarət; funksional hazırlığa nəzarət; tibbi-bioloji testləşdirmə; gənc idmançıların gündəlik funksional vəziyyətinə biokimyəvi nəzarət; gənc idmançıların tibbi-bioloji göstəricilərinə, cari ilin nəticəsinə nəzarət.

UGİM-in strukturunda metodik xidmətin yerini dəqiqləşdirməklə, onun fəaliyyətini genişləndirməyə çalışdıq. Metodik fəaliyyət strukturunda prinsipcə iyerarxik tabeçilik var. Burada ali qərarverici orqan metodbirləşmə şurasıdır. Direktor şurasının üzvü kimi iştirak edir, ona görə ki, cavabdeh şəxs kimi müəssisənin müxtəlif növ fəaliyyətini, şuranın qərarının icrasını təmin edir. Baş təlimatçı bilavasitə metodik fəaliyyətin təşkilinə cavabdehdir.

Baş təlimatçı metodik işin əsas bölmələrində: UGİM-in aktual və perspektiv planını, yeniliyə ehtiyacını (təlim-məşq prosesində yeni texnologiyaların tətbiqi), idman məktəbinin mövcud və perspektiv imkanlarını, struktur bölmələrin fəaliyyətinin səciyyələrini, iştirakçıların təlim prosesində innovasiyalı fəaliyyətə hazırlanmasını, təlim-məşq prosesinin effektliliyini, idman məktəbinin inkişafında baş verən problemləri, idman məktəbinin inkişafa hazırlanmış proqram göstəricilərini və başqa strateji sənədlərin təsirini və s. məsələləri təhlil etmək funksiyasına malikdir.

Baş təlimatçı UGİM-də metodik xidməti planlaşdırır və təşkil edir; təhsil müəssisəsinin təminat strukturunu (metodkabinet, problem laboratoriya, reabilitasiya mərkəzi və s.) müəyyən edir; idman məktəbinin inkişafının ümumi tələblərini, fəaliyyət prosesinin nəticəsinin qiymətləndirilməsi meyarlarını hazırlayır; iştirakçıların təhsil prosesində peşəkar kompetensiyalarını inkişaf etdirən tədbirlər təşkil edir; qabaqcıl təcrübəni öyrənir, ümumiləşdirir və yayır; məktəbdə innovasiyaların tətbiqi məlumatını toplayır; elmi-tədqiqat, təcrübi-eksperimental işi sistemləşdirir; idman məktəbinin xariclə əlaqə sistemini yaradır; innovasiyalı fəaliyyətə nəzarət sistemini planlaşdırır və təşkil edir. Proqram-metodik sənədlərin təkmilləşdirilməsini idarə edir. Təlim-məşq sənədlərini (təhsil proqramlarını, tədris planını, gənc idmançıların illik hazırlıq planını və s.), müəssisələrdə yeni qaydaların tətbiqini, xarici partnyorların əlavəsini ekspertiza edir və qiymətləndirir. UGİM-in inkişafını əks etdirən nəşr materialını, tədqiqatın nəticələrini, eksperiment materiallarını redaktə edir.

UGİM-in strukturunda olan mühasib məktəbin maliyyə məsələlərini idarə edir. O, dövlətin ayırdığı əmək haqlarını düzgün yönətməklə yanaşı, həm də UGİM-in Əsasnaməsinin verdiyi imkanlar daxilində əlavə maliyyə mənbələri axtarır, sponsor tapır, onunla işləmək qaydalarını müəyyənləşdirir.

İdman məktəblərinin idarə ediməsinin ənənəvi strukturda: direktor, dərs hissə müdiri, baş təlimatçı, təlimatçı, mühasib, həkim, tibb bacısı,

makinacı ştatları var.

Əsasnaməsində verilən ştatlar innovasiyalı idarəetmə strukturunda saxlanmaqla yanaşı: tibbi-bioloji xidmət; profilaktik-reabilitasiya xidməti; problemin həllinə həsr olunmuş laboratoriya; idman növü üzrə elmi qruplar birliyi və tibb kabineti yaradıldı.

Uşaq-gənclər idman məktəblərinin fəaliyyət strukturunu müəyyənləşdirdiyimiz idarəetmə modelinə uyğunlaşdırdıq. UGİM-in təqdim edilən struktur-modullu fəaliyyəti bu bloklarda: təşkilati fəaliyyət; nəticəyönlü fəaliyyət; metodik fəaliyyət; tibbi-bioloji təminat fəaliyyəti; profilaktik-reabilitasiya fəaliyyətində birləşir. Hər bir təqdim olunan blok alt sistemlərdən ibarət olmaqla, istiqamətləndirilir, ümumi fəaliyyətin formalaşmasına öz töhfəsini verir. Hazırlanmış model idman məktəblərində keyfiyyəti təmin edir.

***"UGİM-in idarə edilməsinin psixoloji-xidmət modeli"*** adlanan ikinci fəslin ikinci yarımfəslində psixologiya elminin idman sahəsində imkanları araşdırılır. Respublika və xarici ölkə alimlərinin tədqiqatları bir neçə aspektdən qruplaşdırılır:

1. Gənclərin fiziki sağlamlığının ümumi psixoloji xüsusiyyətləri Ə.S.Bayramov, Ə.Ə.Əlizadə, B.H.Əliyev, S.Ə.Seyidov, R.İ.Əliyev, M.Ə.Həmzəyev, Ə.Ə.Qədirov və E.B.Bəylərovun tədqiqat dairəsində olmuşdur. Onlar təlim-tərbiyə prosesində fiziki tərbiyənin yeri, məzmunu, psixi inkişaf, yaş dövrlərinə uyğun olaraq fiziki yükün verilməsi məsələlərinə tədqiqatlarında toxunmuşlar.

2. T.T.Camqarov idmanın növ və müqayisəli çalışmalarının psixoloji sistemini, D.İlyusti idman növünün psixoqramasının metodoloji aspektinin hazırlanmasını, D.A.Arasıyev, P.Q.Nejnov idmançının hazırlanmasında təşkilati-psixoloji yanaşmanı, D.Caync, Q.Uotson idmançının nəticəsinin proqnozunun verilməsini psixoloji faktor kimi, İ.P.Patov təlim hərəkətində biomexaniki, psixoloji və nəzəri problemləri, B.B.Jlosev idmançının yüksələ bilməsinin psixoloji prinsiplərini, R.Senqer idmançının özünənəzarətinin psixoloji xüsusiyyətlərini, E.Xan təlim-məşq hazırlığında psixoloqun rolunu tədqiq etmişlər.

3. UGİM-də psixodioqnostika metodundan istifadə vacib və gərəkli bir sahə kimi müxtəlif cəhətdən öyrənilmişdir. Belə ki, V.P.Nekrasov idman dioqnostikasının nəzəri funksional sisteminin bir sıra məsələlərini, idmançıların təlim-məşq hazırlığına yönəldilməsinin və yarışlara istiqamətləndirilməsinin psixodioqnostikasını, J.A.Kolomeysev sosiometrik metodun tətbiqini, A.N.Romanin idmançının və komandanın

mənəvi-psixoloji hazırlığının qiymətləndirilməsi məsələlərini araşdırmışlar.

4. Yarışdan əvvəl idmançının psixoloji hazırlığı və yarış zamanı psixoloji tənzimlənməsi məsələləri alimlər tərəfindən araşdırılmışdır. A.V.Radionov yüksək dərəcəli idmançıların hazırlanmasının psixoloji əsaslarını, M.Vanek, V.Qoşek idmançının psixoloji hazırlığının aktual məsələlərini, Q.D.Qorbunov müasir mərhələdə praktik psixoloqun əsas vəzifələrini, R.Syun psixoloq və idmançının çıxışını: prinsip və praktik nümunələrini, Q.Rider idmanda tətbiqi psixologiyanı, Q.Şellinq idmanda psixoloji tənzimləmə təcrübəsindən nümunəni tədqiq etməklə, idmanda psixologiya elminin yerini və əhəmiyyətini vurğulayır, bu sahədə uğura imza atmağın başlıca yolu kimi tətbiqi psixologiyanın imkanlarının genişliyini qiymətləndirirlər.

5. İdmançının fərdi psixoloji xüsusiyyətlərinə aid eksperimental tədqiqatlar da diqqəti cəlb edir. M.S.Krote, D.F.Aleksandır, İ.X.Çiyen, D.L.Poynt, Q.Bruks tələbə xokkey komandası oyunçularının psixoloji xüsusiyyətlərini, P.A.Jorov emosional vəziyyətdə özünütənzimləmədə yeniyetmənin psixo-fizioloji tələbatını, B.A.Vyutin psixoloji hazırlığın idmançının yarış prosesində fəaliyyətinin inteqral xarakterini və fərdiliyini, S.P.Anikeyeva, M.A.Melixova, Q.D.Puvin idmançının yarış zamanı psixoloji vəziyyəti və qan dövranının dəyişməsinə təsirini, V.M.Melumkov nəzarətin formalaşdırılmasına rəhbərlik məsələlərini fərdi və kollektiv idmançılarla aparılan işi eksperimentdən keçirmiş və müsbət nəticə qazanmışlar.

6. İdman və sosial-psixoloji problem məsələsi elə bir sahədir ki, o, təkcə məktəblə, məşq otağı və s. ilə məhdudlaşmır. İdmanın qiymətləndirilməsi idarə edənlərlə yanaşı, tamaşaçılar tərəfindən də olur. Bu və digər aktual məsələlər alimlər tərəfindən araşdırılmışdır. V.M.Şelenberqer idman fəaliyyətində sosial münasibətlərin idmançını tənzimləyən komponent kimi, B.Arvanob, İ.Qanenski kollektivin mülahizəsinin öyrənilməsini, P.Kunat şəxsiyyət və cəmiyyət arasında funksional vəzifə və s. məsələləri aydınlaşdırmışlar. Bu sahədə ən böyük araşdırmanı ABŞ-ın İllinoysu Universitetinin professoru Raymer Martens aparmışdır.

UGİM-də fəaliyyət göstərən psixoloq idmançını uzunsürən məşq prosesinin ağırlığına hazırlayır, təlim-məşq və yarışda yaranmış ekstremal şəraitdə idmançını məhsuldar işləməyə alışdırır, idmançıları davranışlarını idarəetməyə hazırlayır, məşqçi-müəllimin psixoloji hazırlığının korreksiyasını həyata keçirir, yaranmış gərginliyi psixoloji vasitələrlə bərpa edir, idman kollektivinin formalaşdırılmasında iştirak edir. Sadalananlar

ümumiləşdirilərək praktik şəkildə prosesin gedişinə tətbiq olundu.

Məşqçi-müəllim idmançının psixoloji problemini aydınlaşdırır, məlumatları qəbul edir, təkmilləşdirir, sistemləşdirir və qiymətləndirir. Qabaqcıl təcrübəni öyrənib, yaradıcı şəkildə işinə tətbiq edir. Yaranan problemi psixoloji cəhətdən aradan qaldırır. Verilmiş elmi məlumatları təlim-məşq prosesinə tətbiq edir, müsahibə, təlim-məşq prosesinin psixodioqnostik müşahidəsinin planlaşdırmasını aparır, psixoloji uyğunluğunu müəyyənləşdirir.

*“**Məşqçi-müəllimlərin peşəkarlıqlarının inkişafı modeli”*** adlanan yarımfəsildə göstərilir ki, məşqçi-müəllimlər uşaq-gəncləri milli-mənəvi, dini-dünyəvi dəyərlər əsasında tərbiyə edir, dözümlülük, çeviklik, cəsarətlilik, iradəlilik, təşəbbüskarlıq, intizamlılıq və s. kimi xüsusiyyətlər əsasında formalaşdırır, idman sahəsində yüksək nəticələr göstərməsinə hazırlayır. Bu məsələlərin uğurlu həlli üçün məşqçi-müəllim məqsədyönlü axtarışlar aparır, innovasiya göstərir, yüksək mənəvi və iradi keyfiyyətlər nümayiş etdirir.

UGİM-də ehtiyat idmançıların hazırlanması məşqçi-müəllimin və uşaq-gəncin vahid məqsədi olması, onların şəxsi keyfiyyətlərinin və qarşılıqlı əlaqəsinin səviyyəsinin yüksəldilməsi səciyyəvi xüsusiyyətlərlə müəyyən edilir. Məşqçi-müəllimlə uşaq-gənclərin əlaqəsi qarşılıqlı etibar və hörmət, prinsipiallıq, səmimiyyət prinsipləri üzərində qurulur.

Təlim-məşq prosesinin düzgün qurulması və onun idarə edilməsi üçün zəruri olan bilik və bacarıqlara yiyələnməsi məşqçi-müəllimin uğuruna zəmin yaradır.

Məşqçi-müəllimin peşəkarlığının fiziki, taktiki-texniki, intellektual inkişafı yolları göstərilmiş, tərbiyə sahəsində baş verən yeniliklərlə tanış olması, şüurluluq, mütəşəkkəllik, əyanilik, mümkünlük, çeviklik, yaşauyğunluq, dözümlülük, tənzimləmə, ardıcıllıq və s. prinsiplərə riayət eməsi üçün pedaqogika, psixologiya, fiziologiya üzrə bilik, bacarıq, vərdiş və səriştələrini təkmilləşdirməsi vurğulanmışdır.

İkici fəslin dördüncü yarımfəsli ***“UGİM-in idarə edilməsinin pedaqoji-metodik təminatı modelinin eksperimenti”*** adlanır. UGİM-in idarə edilməsinin pedaqoji-metodik əsaslarının mövcud durumunu öyrənmək ücün 2013/2014-cü dərs ilində müəyyənedici eksperiment apardıq. Bu zaman müsahibə, müşahidə, nəticələrin yoxlanması ilə yanaşı, anket sorğusundan da istifadə etdik. Sorğuya Bakı şəhərində fəaliyyət göstərən 1, 5,7,8,12 nömrəli İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman Məktəbi, habelə 2, 3, 6, 10, 11,14, 15, 16, 17, 18, 19 nömrəli və

Goranboy rayon 1 və 2 nömrəli uşaq-gənclər idman məktəbinin 18 nəfər direktoru, 13 nəfər direktor müavini, 4 nəfər baş-təlimatçı, 8 nəfər təlimatçı, 4 nəfər metodist, 22 nəfər baş məşqçi, 34 nəfər məşqçi-müəllim, 3 nəfər hakim cəlb olundu.

Anket sorğusuna aşağıdakı 6 sual daxil edilmişdi: 1.Uşaq-gənclər idman məktəblərinin idarə olunmasında hansı pedaqoji- metodik prinsiplərdən istifadə edilir? 2.Uşaq-gənclər idman məktəblərinin fəaliyyətində pedaqoji-metodik təminatı həyata keçirən struktur bölmələrin adını və gördüyü işin məzmununu yazın. 3.Uşaq-gənclər idman məktəblərinin məqsədəuyğun idarə edilməsinin fəaliyyət istiqamətlərini (məsələn, təşkilati, təkmilləşdirmə, koordinasiya, nəzarət və s. əlavə etmək olar) göstərin. 4.Uşaq-gənclər idman məktəblərinin fəaliyyətində pedaqoji-metodik xidmətin istiqamətlərini göstərin. 5.Uşaq-gənclər idman məktəblərində idarə etmənin vəziyyətini yaxşılaşdırmaq üşün hansı pedaqoji-metodik işlər görmək lazımdır? 6.Uşaq-gənclər idman məktəblərində idarə etməni təkmilləşdirmək üçün hansı struktur dəyişikliyi etmək lazımdır?

Pedaqoji ədəbiyyatın təhlili, iş təcrübəsinin öyrənilməsi, qabaqcıl mütəxəssislərlə aparılan söhbət, həmçinin anket sorğusunun cavablarının ümumiləşdirilməsi UGİM-in idarə edilməsi işini optimallaşdırmaq üçün hazırladığımız pedaqoji-metodik təminat modelinin eksperimental məktəblərdə tətbiq edilməsinə imkan yaratdı. Bu zaman UGİM-də idarəetmə prosesinin keyfiyyətini optimallaşdırmaq məqsədilə bir sıra məsələlərin: ibtidai hazırlıq, təlim-məşq, idman təkmilləşdirmə prosesinin modelləşdirilməsi (mövcud nailiyyətlər, perspektiv tələblər əsasında problemin həllinin optimal yollarının tətbiqi); nəzərdə tutulmuş keyfiyyət səviyyəsinə nail olmağa imkan yaradan təhsil sisteminin fəaliyyətinin pedaqoji-metodik təminatı, bu təminat sayəsində tələb edilən səviyyədə tədrisdə keyfiyyətin olmasına nəzarət sisteminin operativ reaksiya verilməsinə şəraitin yaradılması; verilən tələblər əsasında tədrisin məzmun modelinin dəyişməsi, onların yeni keyfiyyət zəminինə keçməsi və fəaliyyətdə olan təhsilin keyfiyyətinin diaqnostikasının həllinə çalışdıq.

Təqdim olunan pedaqoji-metodik təminat modeli UGİM-in fəaliyyətini optimal təşkil etməyə, vahid tədris prosesinin, həmçinin onun tərkib hissələrinin səmərəli idarə edilməsinə imkan verdi.

UGİM-in fəaliyyətinin öyrənilməsindən, pedaqoji ədəbiyyatın və anket sorğusunun təhlilindən belə qənaətə gəldik ki, gənc idmançıların hazırlanması sistemində idarəetmə komponentlərinə: uşaq-gənclər idman

məktəblərində tədrisin təşkilində vahidlik; təlim-tədris prosesinə kompleks nəzarət sistemi; tədris prosesini təmin edən yardımçı fəaliyyət; elmi-metodik layihələrin həyata keçirilməsi və onların təlim-tədris prosesinə inteqrasiyası daxil edilməlidir.

UGİM-in elmi-metodik əsasda idarəetmə modeli pedaqoji eksperimentin təşkilini zəruri etdi. Eksperiment 2013-2016- cı dərs illərini əhatə etməklə üç mərhələdə keçirildi. Birinci mərhələdə UGİM-in pedaqoji-təşkilati fəaliyyətində idarə etmənin məzmun və struktur dəyişikliyi təcrübədən keçirildi: UGİM-də təhsil, pedaqoji-metodik və təşkilati-metodik fəaliyyət, təlim-tədris prosesinin tibbi-bioloji təminatı, profilaktik-bərpaedici fəaliyyət növləri fərqləndirildi; təşkilati-metodik fəaliyyətin alt sistem quruluşu müəyyənləşdirildi, fəaliyyətin məzmunu və qarşılıqlı əlaqəsi hazırlandı.

UGİM-in direktor müavininin, baş məşqçinin və metodistin pedaqoji-metodik təminat modelinə uyğun olaraq vəzifələrinin məzmunu hazırlandı və eksperimental qrupların rəhbərlərinə öyrədildi. Abşeron rayon UGİM-in mütəxəssislərinin peşəkarlıqlarının yüksəldilməsi üçün mövzular tövsiyə olundu və direktor müavinini, metodist-təlimatçıları, baş məşqçiləri və məşqçilər qrupunu özündə birləşdirən "metodik xidmət qrupu" yaradıldı. Metodik xidmət qrupunun fəaliyyətini özündə əks etdirən məzmun hazırlandı: 1."Ətraf mühit"lə əlaqənin yaradılması üzrə metodik iş. 2.Təhsil prosesinin optimallaşdırılması üzrə metodik iş. 3. Məşqçi-müəllim heyətinin fəaliyyəti üzrə metodik iş.

"Pedaqoji-metodik xidmət qrupu"nun təlim-tədris prosesinin cari və perspektiv planlaşdırması və təhlili üzrə sənədlər hazırlandı, təsdiqləndi və fəaliyyətdə nəzərə alındı. Optimallaşdırılmış inkişaf rejimində çalışan UGİM-in fəaliyyətinin keyfiyyət göstəricinin dinamikası izlənildi. Belə ki, 2013/2014-cü dərs ilindən eksperiment apardığımız UGİM-də çalışan məşqçi-müəllimlərin peşəkarlıq səviyyəsinin yüksəldilməsinə yönələn işlər təşkil etdik.

UGİM-in sistemli islahatına yönəlmiş strateji inkişaf proqramı tərtib olundu. Burada ilk növbədə: a) UGİM-in ilkin (nail olunan) vəziyyəti; b) arzu edilən vəziyyəti (yeni məktəb modeli); c) planlaşdırılmış vəziyyətə keçid üçün vacib və yetərli hərəkətlər alqoritmini müəyyən etdik. Təhsil sisteminin pedaqoji-metodik təminatı modelinə məktəbli kontingentini (uşaqların sayı, qruplar, bölmə və seçimlərin miqdarını), təhsil prosesinin strukturunu, təhsil prosesi iştirakçılarının qarşılıqlı əlaqəsini, təhsil mühitini, təhsilin və idarə etmənin məzmununu, təşkilati,

texnoloji funksiyaları, təmayülləri, prinsipləri aid etdik.

UGİM-də fəaliyyət göstərən məşqçi-müəllimlərin peşəkarlığının inkişafı dinamik xarakter aldı, göstəricinin sabit artımı özünü doğrultdu. 2013-cı illə 2016-cı ilin göstərici fərqi 50% oldu.

**Abşeron rayon UGİM-də sərbəst güləş üzrə gənc idmançılarla (15 nəfər 15-16 yaşlı oğlanlarla) aparılan eksperimental işin nəticələri**

**Cədvəl 1.**

| № | Sınaq-təcrübə işinin növü | 2013-cü il, eksperimentin əvvəlində | | | 2016-cı il, eksperimentin sonunda | | |
|---|---|---|---|---|---|---|---|
| | | əla | Yaxşı | kafi | əla | yaxşı | kafi |
| 1 | 30 m. məsafəyə qaçış (san.) | 4,5 | 6, 5 | 5,5 | 3,5 | 4 | 4,4 |
| 2 | Yerində qaçış: 5 dəq. | 1540 | 1520 | 1450 | 1630 | 1628 | 1620 |
| 3 | Yerindən uzununa tullanma (sm.) | 2,30 | 2,26 | 2,24 | 2,50 | 2,45 | 2,40 |
| 4 | Yerindən hündürlüyə tullanma (san.) | 62 | 60 | 58 | 68 | 67 | 65 |
| 5 | 3×10 m. o baş- bu başa qaçış | 6,9 | 7,0 | 7,2 | 6,5 | 6,6 | 6,7 |
| 6 | Turnikdə dartınma (dəfə) | 15 | 14 | 13 | 25 | 22 | 20 |
| 7 | Halqalarda dartınma (dəfə) | 18 | 17 | 15 | 24 | 23 | 22 |
| 8 | İkiəllə baş arxasından 2 kq-lıq doldurulmuş topu atma (sm.) | 485 | 480 | 475 | 580 | 575 | 550 |
| 9 | Körpü vəziyyətində tullanmaq: 30 s. | 5 | 4 | 3 | 10 | 9 | 8 |
| 10 | Dəyirman: 30 san. | 6 | 5 | 4 | 11 | 10 | 9 |
| 11 | Əlbəyaxa döyüş | 3 | 2 | 1 | 6 | 5 | 4 |
| 12 | Qollar üzərində bədənin döşəmədən qaldırılıb-endirilməsi (sayı) | 18 | 17 | 16 | 22 | 21 | 19 |
| 13 | Gövdənin döşəmədən qaldırılıb -endirilməsi (sayı) | 15 | 14 | 12 | 24 | 23 | 20 |

Bu göstəricilər eksperimental qrup uşaqlarının nəticələrinin inkişafı dinamikasını təsdiq edir. Cədvəldən göründüyü kimi UGİM-in gənc idmançılarının xüsusi hazırlıq səviyyəsinin (15-16 yaşlı güləşçilər) 2013-cü il göstəriciləri ilə müqayisədə 2016-cı ildə həmin yaş kateqoriyasına aid olan gənclərdən əsaslı şəkildə fərqləndi. Statistik hesablamanın nəticəsi eksperiment aparılan gənclərdə müsbət irəliləyişin olduğunu təsdiqlədi.

Abşeron rayon UGİM-in idarə edilməsində tətbiq edilən pedaqoji-metodik təminat modeli təlim nəticələrinin yülsəldilməsindən xəbər verir.

Respublika, Bakı şəhəri və Abşeron rayon UGİM-lərinin 2016-cı il nəticələrinin müqayisəsi aşağıdakı kimi oldu (%)




**Sxem 1. Respublika, Bakı şəhəri və Abşeron rayon UGİM-lərinin 2016-cı il nəticələrinin müqayisəsi**

Nəticələr göstərdi ki, 2016-cı ildə Abşeron rayon UGİM-də kütləvi idmanın inkişafı respublika və Bakı məktəblərində olduğundan təxmini üç dəfə aşağıdır, dərinləşdirilmiş ixtisaslaşdırılmış hazırlıq isə üç dəfə çoxdur, yüksək idman nailiyyətləri 3-4 dəfə yüksəkdir.

Nəticələrin təhlili belə qənaətə gəlməyə imkan verir ki, 2013-cü illə müqayisədə kütləvi uşaq-gənclər idmanında sahə payının ixtisara salınması zamanı, yüksək idman ustalığı və dərinləşdirilmiş məşq mərhələlərində onun genişlənmə cəhdləri müşahidə edilir. Yüksək ixtisaslaşdırılmış idmançıların hazırlığı üzrə UGİM-in fəaliyyətinin keyfiyyətcə yüksəlməsi pedaqoji-metodik təminat modeli əsasıda həyata keçirildi və nəticə onun

üstünlüklərini təsdiqlədi.

Eksperiment materiallarının ümumiləşdirilməsindən belə nəticəyə gəlmək olar:

1. Eksperiment zamanı təhsil prosesinə mərhələlərlə daxil edilən pedaqoji-metodik fəaliyyətin idarəetmə metodeli: müxtəlif yarışlarda UGİM uşaqlarının göstərdiyi nəticələrə, onların xüsusi hazırlıq səviyyəsinin əhəmiyyətli dərəcədə inkişafına, məşqçi-müəllim heyətinin peşəkarlığının yüksəldilməsinə, mütəxəssis fəaliyyətinin motivasiyasına, yüksək idman ustalığı mərhələsində keçirilən idmançı sayının artımına zəmin yaratdı.

2. Eksperimental iş təsdiq etdi ki, təhsil prosesinin keyfiyyətinin idarəedilməsi proqnozlaşdırılmış prosesdir, onun fəaliyyətini yaxın potensial inkişaf mühitində önə çəkmək vacibdir, yəni real imkanları nəzərə alaraq, gələcəyi proqnozlaşdırmaq mümkündür.

3. Tədqiqatın nəticələri təklif olunan UGİM-in pedaqoji-metodik idarəetmə texnologiyalarının təhsil prosesinə daxil edilməsi, ardıcıllığın öyrənilməsi, idman məktəbinin strateji inkişaf proqramının əsas nəzəri hazırlığına şərait yaratdı.

4. UGİM-in strateji inkişaf proqramına uyğun hazırlanan tələblər idarə etmənin icrası yollarını: problemlərin kompleks təhlili, məqsəd seçiminə əsaslı yanaşma və onlara nail olma vasitələri, yekun nəticəyə yönlənmə, nəticənin əldə edilməsi üçün məqsəd və vəsaitlərin vəhdəti, bütün kollektivin işə cəlb olunması, onların hərəkətinin koordinasiyası, məqsədli proqramın hazırlanması, məqsədlərə maksimum keyfiyyətli dərəcədə nail olmaq üçün vəsaitlərdən səmərəli istifadəsi, idarə edənin səylərinin inteqrasiyası və xüsusi yaradılan təşkilati-idarəetmə strukturlarının köməyilə fəaliyyətin koordinasiyasını təşkil edir.

Tədqiqat aşağıdakı **nəticəyə** gəlməyə əsas verdi:

1. UGİM-in fəaliyyətinin pedaqoji-metodik təminatının səmərəli idarəetmə modeli beş əsas mexanizmi: təşkilati, tədris, metodiki, təlim-tədris prosesinin tibbi-bioloji təminatı və profilaktik-reabilitasiyanı özündə birləşdirir. İdman vəsaitlərinin hazırlıq keyfiyyətinin yüksəlməsinə müvafiq, uzunmüddətli, məqsədyönlü, uzlaşmış strukturlara keçid işinin formalaşmasına, üstün cəhətlərin aşkar edilməsinə, təlim-məşq prosesinin məzmununun vaxtında korreksiya olunmasına və ictimai-sosial inkişaf şəraitinə uyğunlaşmasına imkan verir.

2. UGİM-in pedaqoji-metodik təminatı modeli idarə etmənin struktur bloklarının fəaliyyət məzmunu və məqsədli yönlənməsi: təşkilati

blokda texniki və hüquqi-normativ təminatı, xarici əlaqələri, marketinq və reklam təminatını, büdcədənkənar fəaliyyət sahələrini birləşdirir;

- tədris fəaliyyəti bloku: təşkilati, təlim-tədris, yarışma, informasiyalı idarəetmə, fəaliyyət sahələrinə nəzarət sistemlərini birləşdirir;

- metodik struktur bloku: təşkilati-metodik, tədris-metodik, elmi-praktiki fəaliyyət sahələrini birləşdirir;

- idarəetmə sisteminin tibbi-bioloji və profilaktik–reabilitasiya bloklarının əsas istiqamətinə uşaqların vəziyyəti, həmçinin çoxillik hazırlıq mərhələsində gənc idmançıların bərpası və reabilitasiyasına yönləndirilmiş kompleks təsir daxildir.

3. İbtidai hazırlığın, təlim-məşq prosesinin, idman təkmilləşdirmə və yüksək idman ustalığı mərhələlərinin elmi-metodik təminatı sisteminin yeni modeldə təşkili UGİM-də aparıcı amilləri hesaba almaqla, uşaqlarda idman ustalığı səviyyəsini müəyyənləşdirən təlim-tədris prosesinin idarəetmə üsuluna fərqli yanaşmanın reallaşmasını nəzərdə tutur.

4. UGİM-in idarəetmə sisteminin modernləşməsi və proqnozlaşdırılması tədris prosesinin keyfiyyətinin yüksəlməsinə şərait yaradır.

5. UGİM-in tədris prosesinə pedaqoji-metodik idarəetmə metodelinin daxil edilməsi təcrübədə yüksək nəticə verdi. Eksperiment yüksək ixtisaslı idmançıların sayının əhəmiyyətli dərəcədə artdığını, məşqçi-müəllimlərin pedaqoji ustalığının təkmilləşdiyini təsdiqlədi.

Aparılan eksperiment UGİM-in fəaliyyətinin optimallaşması məqsədilə bir sıra **təkliflərin** verilməsinə imkan yaradır:

1. UGİM-in fəaliyyət istiqamətlərini və onların icrasını təmin etməyə imkan verən, konseptual təməllər əsasında yaradılmış kompleks strateji inkişaf proqramı hazırlamaq məqsədəuyğundur.

2. Tərtib olunmuş strateji inkişaf proqramını məktəbdaxili idarəetmə sisteminin imkanlarına və tələblərinə müvafiq uyğunlaşdırmaq lazımdır və hər bir idman məktəbində istifadə olunması məqsədə uyğundur.

3. Təqdim olunan məktəbdaxili idarəetmə modelindən təcrübədə istifadə edilərkən, "insan amili"ni və idman məktəbinin spesifik fəaliyyət şəraitini nəzərə almaq lazımdır.

4. UGİM-in fəaliyyətinin pedaqoji-metodik məzmunu və istiqamətinin planlaşdırılması zamanı bir-birilə əlaqəli olan qrup növlərini: "ətraf mühitlə" əlaqə üzrə, təhsil prosesinin optimallaşdırılması üzrə və məşqçi-müəllim heyətinin fəaliyyəti üzrə metodik işə ayırmaq olar.

5. UGİM-in idarəetmə sistemini: hüquqi-normativ, nəzəri, infor-

masiyalaşdırıcı, pedaqoji-metodik, maddi-texniki, psixoloji-motivasiyalı və maliyyə resursları təşkil edir. UGİM-in idarə edilməsinin hüquqi-normativ təminatı təkmilləşdirilməlidir.

6. UGİM-i idarəedənlər fəaliyyətlərini pedaqoji-metodik tələblər əsasında qurmalıdırlar. İdarəetmə fəaliyyətinin pedaqoji-metodik təminatı iştirakçıların müəyyən pedaqoji texnologiyalar, fəaliyyət üsulları və konkret metodik vasitələrlə silahlanmasına şərait yaratmalıdır.

İdarə edənlərin fəaliyyəti informasiya ilə təmin olunmalıdır. İdarəetmə fəaliyyətində iştirakçılar üçün UGİM-in vəziyyəti, yenilikləri, ehtiyacları, perspektivləri, mümkün olan əlaqələri haqqında məlumatlar verilməlidir. UGİM-in idarəetmə fəaliyyətinin uğurlu olması üçün texniki təminatında: məkan, avadanlıq, videotexnika və sairə ilə təmini şərtdir. İdarəetmə fəaliyyətinin pedaqoji-psixoloji təminatında xidmət səviyyəsinin yüksək motivasiyanın yaradılması mühüm şərtdir. İdarəetmə fəaliyyətinin maliyyə təminatında UGİM-in büdcəsinin imkanları nəzərə alınmalıdır.

7. UGİM-in büdcədənkənar inkişaf fondunun yaradılması təhsilin keyfiyyətli idarə edilməsini şərtlərindirən amillərdən olardı. Büdcədənkənar fəaliyyətin təşkili təhsil müəssisələrinin büdcədənkənar vəsaitlərinin mənbələrini: təhsil xidmətləri üçün ödəniş (büdcədənkənar qruplar, fərdi hazırlıq və s.); əlavə idman-sağlamlıq xidmətlərinin reallaşmasından əldə edilən mənfəət; profilaktik-bərpa fəaliyyətinin reallaşmasından əldə edilən gəlir; tibbi-bioloji konsultasiyalar və müayinələrdən əldə edilən gəlir; məkanların icarəyə verilməsindən əldə edilən gəlir; idmançıların transfer xidmətlərindən əldə edilən gəlir və könüllü ianələri (valideynlər, məzunlar, ictimai təşkilatlar və s.) aşkar etməyə imkan verər.

8. UGİM-də tərbiyə işləri üzrə direktor müavini və psixoloq ştatının olması bu sahədə əsaslı dəyişikliklərin yaranmasına kömək edər.

Dissertasiyanın əsas məzmunu müəllifin çap olunmuş aşağıdakı **əsərlərində** öz əksini tapmışdır:

1. Müstəqillik dövründə Azərbaycan idmanının yeni uğurları // Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu, Elmi əsərlər, 2013, №4, s.218-222

2. Xarici ölkə təcrübəsində uşaq-gənclər idman-fiziki tərbiyə hərəkatı / "Azərbaycanda təhsil quruculuğunun prioritetləri: müasir yanaşmalar" mövzusunda Beynəlxalq Elmi Konfransın Materialları, Naxçıvan,5-6 iyun 2015, s.243-244

3. Uşaq-gənclər idman məktəblərində (UGİM) fiziki tərbiyənin tədrisi və təşkili formaları / Doktorantların və Gənc Tədqiqatçıların XIX

Respublika Elmi Konfransının Materialları. Bakı, 2015, s. 324-325

4. Uşaq-gənclər idman məktəblərində fiziki tərbiyə işinin pedaqoji əsasları // Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu, Elmi əsərlər, 2015, №2, s.75-78

5. Uşaq-gənclər idman məktəblərində təhsilin inkişaf dinamikası / "Azərbaycan təhsilində strateji hədəflər və pedaqoji elmlərin qarşısında duran vəzifələr" mövzusunda Respublika Elmi Konfransın Materialları. Bakı, 16 dekabr 2015, s. 146-149

6.Uşaq-gənclər idman məktəblərində məşqçi-müəllimlərin işinin təşkilinin pedaqoji-psixoloji əsasları // Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu, Elmi əsərlər, 2015, №3, s.74-77

7. Uşaq-gənclər idman məktəblərində təlim-məşq prosesinin idarəedilməsi metodikası // Humanitar Elmlərin Öyrənilməsinin Aktual Problemləri, 2015, №3, s.170-179

8. Требования к методика-педагогической модели управления детско-юношескими спортивными школами / Наукові записки серія педагогічні та історичні науки Випуск CXXIII (123). Київ, Вид-во НПУ імені М.П.Драгоманова, 2015, с.239-247

9. Uşaq-gənclər idman məktəblərinin idarəedilməsinin psixoloji əsasları // Humanitar Elmlərin Öyrənilməsinin Aktual Problemləri, 2016, №1, s.264-269

10. Uşaq-gənclər idman məktəblərinin idarəedilməsinin pedaqoji-metodik təminatı modeli // Azərbaycan məktəbi, 2016, №2, s.104-108

10. Uşaq-gənclər idman məktəblərində keyfiyyətin idarəedilməsi: monitorinq və qiymətləndirmənin tətbiqi / "Şagird nailiyyətlərinin qiymətləndirilməsi: məzmun və vasitələrin yaradılması problemləri" mövzusunda beynəlxalq konfransın materialları, Bakı, 25 iyun 2016-cı il, s.

**Хиджран Ибрагим оглы Шарифов**

**Научно-педагогические основы управления детско-юношескими спортивными школами**

**Резюме**

Диссертация, посвященная научно-педагогическим основам управления спортивными школами для детей и молодежи, состоит из введения, двух глав, семи параграфов, выводов, списка используемой литературы и приложений. Далее представляются объект, предмет, цель и задачи, гипотеза, методологические основы, методы исследования, научная новизна, теоретическая и практическая значимость, положения, выносимые на защиту и внедрение результатов. I глава, называемая «Научно-педагогические основы управления детско-юношескими спортивными школами», состоит из трех параграфов. В первом параграфе определяется место нормативно-правовых документов в управлении спортивными школами. В последующих параграфах раскрываются сущность педагогических и методических основ управления, постановка проблемы в педагогической литературе, указываются педагогические и методические особенности, принципы и требования, предъявляемые к этой сфере.

В первом параграфе II главы, называемом «Модернизация управления детско-юношескими спортивными школами», блокированием работы по педагогическому и методическому обеспечению деятельности спортивных школ для детей и молодежи, обосновывается создание модели модульного типа управления.

В третьем параграфе II главы представляется модель под названием «Развитие профессионализма тренеров-учителей». Отмечается, что тренеру-учителю необходимо заниматься самообразованием. Помимо ознакомления с литературой, отражающие педагогические и методические инновации, он должен овладевать новизной, происходящей во всем мире.

В четвертом параграфе II главы под названием «Эксперимент модели педагогического и методического обеспечения управления детско-юношескими спортивными школами» дается описание констатирующего, обучающего и контрольного экспериментов и подтверждаются идеи, выдвинутые в гипотезе исследования. В конце эксперимента подтверждается повышение уровня результатов спортсменов. Диссертация завершается выводами и предложениями.

**Sharifov Hijran Ibrahim**

## Scientific-pedagogical basis of children's and youth sports schools management


### Summary

Dissertation dedicated to research and teaching the basics of sports management schools for children and youth, consists of an introduction, two chapters, seven paragraphs, conclusions, bibliography and appendices. Further represented object, the subject, purpose and objectives, hypothesis, metodologicheskie foundations, research methods, scientific novelty, theoretical and prakticheskaya importance, the provisions for the defense and implementation of the results. Chapter I, called "Scientific and pedagogical bases upravleniya YOUTH sportivnymi schools", consists of three sections. The first section defines the place of legal documents in the management of sports schools. The following paragraphs reveal the essence of pedagogical and methodological foundations of management, formulation of the problem in the pedagogical literature, specified educational and methodical features, principles and requirements in this area.

In the first section of Chapter II, called "Modernization of control children and yunosheskimi sports schools" blocking work on the pedagogical and methodological support of sports schools for children and youth, justified the creation of a modular type of control model.

In the third section of Chapter II of the model appears under the title "Development professionalizma trainers and teachers." It is noted that the coach-teacher needs to deal with samoobrazovaniem. In addition to the review of the literature, reflecting pedagogicheskie and methodological innovation, it must acquire the novelty occurring worldwide.

In the fourth paragraph of Chapter II, entitled "Experiment model of pedagogical and methodological support of management Children and Youth Sports School" describes the states and training kontrol¬nogo experiments and confirmed the ideas put forward in issledo¬vaniya hypothesis. At the end of the experiment supported improvement of the results of athletes. Thesis concludes the findings and proposals.

**Министерство Образования Азербайджанской Республики**

**Азербайджанский Государственный Педагогический Университет**

*На правах рукописи*

**ХИДЖРАН ИБРАГИМ ОГЛЫ ШАРИФОВ**

# НАУЧНО-ПЕДАГОГИЧЕСКИЕ ОСНОВЫ УПРАВЛЕНИЯ ДЕТСКО-ЮНОШЕСКИМИ СПОРТИВНЫМИ ШКОЛАМИ

**5804.01 – Общая педагогика, история педагогики и образования**

## АВТОРЕФЕРАТ

**диссертации на соискание учёной степени доктора философии по педагогике**

**БАКУ-2016**